# Ümumtürk ədəbi dilinin yaradılması niyə zəruridir və hansı qaydada yaradılmalıdır?

## Şapur Qasimi

(əvvəli ötən sayımızda)

***Əlbəttə dilin gözəlliyinin başqa ölçüləri də var. Lakin onlar ikinci dərəcəli məsələlərdir. Azərbycan türkcəsində vallah, billah, inşallah, maşallah kimi yad sözlər istənilən qədər olduğu kimi adlarımızda da ərəb, fars və s. Məhəmməd, Əli, Zəhra, Fatimə, hətta Kəlbəli (Əlinin iti), İmamqulu, İmamverdi kimi nəinki insanın şəxsiyyətini alçaldan, insanlarda milli mənliyi, milli heysiyyəti öldürərək yad milli mənafelərə xidmət edən nökərlərə, qullara çevirən sözlər yetərincədir. 1400 il ərzində ərəbin, farsın milli maraqlarına xidmət edən siyasi ideologiyaları məişətimizə, hayımıza-vayımıza, ölümüzə-dirimizə o dərəcədə sırıyıblar ki, əzizimizin cənazəsinin başı üstündə ərəb dilində qoyun kimi mələyərək yeddinci əsrin böyük dələduzlarından birinə tərifnamə deyərək, əslində özümüzün də, ölümüzün də təhqir edilməsini özümüzə şərəf sayırıq.***

Yeri gəlmişkən Azərbaycanda dilçi alimlərin türk adlarından ibarət kitabı hazırlanıb çap edilməli, türk ailələrində anadan olan uşağa başqa milli adın verilməsi qadağan edilməlidir. Çünki, bu yad milli adlar bizim milli mənliyimizə olan təhqirdən əlavə, həm də milli mənliyimizə edilən təhlükəli təcavüzdür. Bunu insan hüquqlarının pozulması kimi qiymətləndirənlərə cavab verirəm. Tehranın fars rejimi türk ailələrində doğulan uşaqlara türk adları verilməsini hər vasitə ilə əngəlləməklə bu uşaqlarda fars milli psixologiyası yaradıb, onları assimilyasiyaya məruz qoymasına bütün dünya lal, kar, kor olub, reaksiya vermədiyi halda, biz hansı hesabla öz uşaqlarımızın özümüzə yadlaşdırılmasının qarşısını almamalıyıq. Rusiyanın şimal hissəsində yaşayan türklərin böyük əksəriyyətinin adı, soy adı rus adları və soyadlarıdır. ***Bütün türk dialektlərində yad sözlərin tüğyan etdiyi halda, mən öz dilimdən əl çəkmərəm adı ilə ümumtürk ədəbi dilinin yaradılmasına qarşı çıxanlar əslində özləri də bunu dərk etmədən nəinki özlərinə yad, düşmən olan millətlərin dilinin, deməli bütün istiqamətlərdə iqtisadi-ictimai tərəqqisini, öz milli mənliyinin tənəzzülü hesabına irəli aparmaqla onların quluna nökərinə çevrilməsi bir yana, öz millətinin qatilinə çevrilmiş olurlar.*** Biz bütün türk dialektlərində olan yad sözlərdən təmizlənib ancaq bu dialektlərdəki doğma türk sözlərindən ibarət olub, bütün türk soy və boylarına doğma olan ümumtürk ədəbi dili vasitəsi ilə bütövləşə, böyük, güclü və monolit millətə çevrilə bilərik. Millət və dövlət olaraq iqtisadi-ictimai və texniki tərəqqimizi isə ibtidai siyasətçilərin quraşdırdığı primitiv nağılları bir tərəfə ataraq elmi əsaslarla öz inkişafımızı təmin edə bilərik. Çünki, həyatın bütün sahələrində reallığı, həqiqəti insnalara ancaq elm göstərməklə bərabər, bütün inkişaf və tərəqqinin ağır yükünü insanlarla bərabər elm daşıyır.




Bir tərəfi bugünkü Rusiyanın göbəyində, digər tərəfi Avropanın sonunda olan Osmanlı İmperiyasını quran, lakin öz milli mənliyinə biganə olan Türk sultanlarının bu faciəli səhvlərindən nəticə çıxararaq Ümumtürk Ədəbi Dilinin bütün soy və boylardan olan TÜRK DÜNYASININ türk milləti olaraq mövcudluğunun təmin edilməsinin əzəli əbədi, fövqəladə strateji amili olduğunu dərk edərək hamımız, xüsusilə dilçi amillərimiz bu istiqamətdə hərəkətə gəlməlidirlər. Bu gün yeddinci əsrin nağıl kitabını öpüb gözünün üstünə qoyan türk dövlət başçıları, təəssüflə – "Çinlilər bizim torpaqlarımızı işğal etmək üçün bizə hücum etdikləri vaxt bizim ağsaqqallırımız məsciddə yığışıb təsbehin daşlarının 99 yaxud 101 dənədən ibarət olmalı olduğu barədə qızğın mübahisə edirdilər", – deyən uyğur ağsaqqalın sonrakı peşmançılığın heç bir faydası olmadığını dərk etsinlər. Milli ərazilərinin sahəsi bugünkü Türkiyənin ərazisindən 8 dəfə çox olan, çin dövlətinin onları amerikalılar hinduları rezervasiyalarda saxladığı kimi, heç bir həyat şəraiti olmayan, alman faşistlərinin konslager tipli düşərgələrində saxlayaraq vəhşi işgəncələrə, mərhumiyyətlərə məruz qoymaqla Çində türk milli mənliyinə son qoymağı hədəfləyən çinlilərin bütün səylərinə baxmayaraq sayı keçmiş SSRİ-dən qopan beş türk respublikasının əhalisinin sayından çox olan uyğurların faciəsindən düzgün nəticə çıxarsınlar. Çünki, millətin sabahının taleyi onların bugünkü fəaliyyətinin məzmun və mahiyyətindən, çıxarlıqları qərarlardan asılıdır.

Haqlı olaraq həmişə doğma torpaq uğrunda şəhid olanlar müqəddəs sayılıb. Çünki, erməni kimi heç vaxt vətəni olmayan millət daim qaraçı olaraq başqalarının torpağında təkərlər üzərində həyat keçirib. Doğma torpaq, milli ərazi vətən deməkdir. Millətsiz də torpaq heç vaxt vətənə çevrilə bilmir. Belə ki, hər bir millətə onun milli torpağı vətəndir. Yəni millətsiz də torpaq vətən deyil, ancaq torpaq olaraq mövcud olur. Bu baxımdan ÜMUMTÜRK ƏDƏBİ DİLİ bütün türk soylarının torpaqlarını da hər bir TÜRK üçün doğma vətənə çevirən, ONU BÖYÜK VƏ GÜCLÜ MİLLƏTƏ, DÖVLƏTƏ çevirməklə yenilməz edən yeganə vasitə, çarə olduğundan bu dilin yaradılıb, tədris, tətbiq və təbliğ edilməsi hər bir türkün özünün və nəsillərinin türk olaraq OLUM YA ÖLÜM məsələsidir.

***Dilimizə, onun inkişafına laqeydliyin nəticəsində yüzillərlə bizə düşmən olan millətlərin milli mənafeinə xidmət etməklə onlara nökərçilik edərək özümüzün parçalanıb, əsarətə düşməklə rəzil duruma düşdüyümüzü bizə həqarətlə elan edən fars şovinisti Əli Şəriətinin yazılarından seçmələr edərək bizlərin nəzərinə çatdıran Azərbaycanın dəyərli millətsevər xanımlarından olan Yasəmən xanım Qaraqoyunlunun seçmələrini bu yazıya əlavə etməklə hər bir türkün, o cümlədən türk dövlət və millət başçılarının, alimlərimizin zəruri nəticə çıxaracaqlarına ümid edirəm.***

*Dilimizə, onun inkişafına laqeydliyin nəticəsində yüzillərlə bizə düşmən olan millətlərin milli mənafeinə xidmət etməklə onlara nökərçilik edərək özümüzün parçalanıb, əsarətə düşməklə rəzil duruma düşdüyümüzü bizə həqarətlə elan edən fars şovinisti Əli Şəriətinin yazılarından seçmələr edərək bizlərin nəzərinə çatdıran Azərbaycanın dəyərli millətsevər xanımlarından olan Yasəmən xanım Qaraqoyunlunun seçmələrini bu yazıya əlavə etməklə hər bir türkün, o cümlədən türk dövlət və millət başçılarının, alimlərimizin zəruri nəticə çıxaracaqlarına ümid edirəm...*

Dəyərli Yasəmən xanımın təqdim etdiyi fars şovinisti Əli Şəriətinin etiraflarına baxaq.

1. Sasani imperiyasını ərəblər yendikdən sonra, ərəblərə qarşı mübarizə aparmaq üçün biz Şüubiyyə təşkilatını yaratdıq.

2. İslam içində bütün insnaların və millətlərin bərabərliyi fikrini yayaraq Xəlifənin yalnız ərəblərdən yox, həm də farslardan ola biləcəyini irəli sürdük.

3. Biz islamı ərəbin əlindən aldıq.

4. Biz Ərəbsiz islam yaratdıq.

5. Xilafətə qarşı – İmamət, Fiqhə qarşı Təsəvvür qoyduq.

6. Biz peyğəmdər və sünnəyə əsaslanan islam deyil – İmamətə əsaslanan islam modeli qurduq. İmamət Hz.Əlinin oğlu Hüseynlə, Sasani kralı Yəzdigərdin qızı Şəhrəbanunun izdivacından doğulan Zeynalabdinin nəslini əsas alan bir sistemdir.

7. Şiə – Aryan ruhu ilə Sami ruhunun əl tutuşmasıdır.

8. Şiə Ərəb dünyası ilə İran dünyasını (oxu – fars dünyasını – Ş.Q.) ayıran net (qəti – Ş.Q.) bir sərhəddir.

9. Şüubiyyə Ərəb xilafəti içində Sasanlığı (oxu – fars dövlətçiliyini – Ş.Q.) diriltdi. İnternasional ümmət anlayışına qarşı İranın ruhunu (oxu – fars milli ruhunu – Ş.Q.) hifz etdi.

10. Şübuiyyə Firdovsinin Şahnaməsini, Salman Farsinin şiə doktrinini yaratmaqla Zərdüştlə Məhəmədi, Ərəb ilə farsı qarşılaşdırdı, eşitləşdirdi.

11. Biz İranda hökmranlıq etmiş (651-ci ildən 1926-cı ilə qədər – Ş.Q.) türk xanədanını – kriter olaraq almırıq.Dövlətin başında duran sülalənin etnik kökəncə kim olması önəmli deyil, önəmli olan bu sülalənin iranlılığa (oxu – farsçılığa – Ş.Q.), İranın ruhuna (oxu – fars milli ruhuna – Ş.Q.), İran ideologiyasına (oxu – fars milli ideologiyasına – Ş.Q.) xidmət etməsidir.

12. Önəmli olan İran dövlətçiliyinin (oxu – fars dövlətçiliyinin – Ş.Q.) İran ruhunda (oxu – fars milli ruhunda – Ş.Q.) davam etməsidir. O İran ki, öz torpaqlarında yunan, ərəb, türk, Avropa mədəniyyətlərini sındırıb, əridib yox etmişdir. O iranlı ruh (oxu – fars milli ruhu – Ş.Q.) ki, türk Sultan Mahmud Qzənəviyə sarayında fars dilində yazan 700 şairə maaş bağlatdırmışdır. O ruh ki, Səlcuqları fars dilini Samanilərdən ödünc alıb bütün dünyaya yaydırmağa məhkum etmişdir. O ruh ki, türkləri fars dilini evrənsəl dilə çevirməyə sövq etmişdir.

***13. Mən (yəni, Əli Şrəiəti – Ş.Q.) – Doğulu, Asiyalı, İranlı, Fars oğlu fars olaraq deyirəm ki, İranın ruhu (oxu – fars milli ruhu – Ş.Q.) Ərəb İslam Ümmətçiliyinin, Selevki və Parfiya yunanlarının, Marksist-kommunist internasionalizminin, Avropa liberal kapitalizminin yeritdiyi Batı kültür imperializminin qarşısında yenmədisə, məni kim yenə bilər?***

(ardı gələn sayımızda)